**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA BİZNES VƏ RƏQABƏT MÜHİTİNİN FORMALAŞDIRILMASI PERSPEKTİVLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Zaur Ədalət oğlu Əsədzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, dosent
**Möhübbət Musa oğlu Hüseynov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Səbinə İzzət qızı Vəliyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Əlirza İsrəfil oğlu Məmmədov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Tariyel Müsəllim oğlu Qurbanov**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bazar münasibətlərinin inkişaf etdiyi müasir dövrdə aparıcı mövqe özəl sektora məxsusdur. Bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsinin formalaşması, sosial-iqtisadi tərəqqi, hər hansı regionun inkişafı birbaşa özəl sektorun inkişaf səviyyəsi ilə xarakterizə olunur. Bu mənada hər bir ərazidə (regionda) əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

İşğaldan azad edilmiş ərazilərdə normal həyata qayıdış, əhali məskunlaşmasının təmin edilməsi, regionun potensial imkanlarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi bu gün qarşıda dayanan başlıca vəzifədir. İşğaldan azad edilmiş rayonlarda erməni vandalizminin nəticələrinin aradan qaldırılması, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması, bu ərazilərin iqtisadi reinteqrasiyası Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin prioritetlərinə aiddir.

Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamında qeyd edilir ki: "...Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir"[1]. Bu, bir daha işğaldan azad edilmiş ərazilərdə əlverişli biznes və rəqabət mühitinin formalaşması istiqamətində araşdırma və tədqiqatları zəruri edir.

Digər tərəfdən, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də sosial-iqtisadi inkişafa dair beş Milli Prioritet müəyyən edilmişdir ki, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması və işğaldan azad olunmuş ərazilərə böyük qayıdış məsələləri də bunlara aiddir. Bütün bunlar isə təbii-iqtisadi resurslardan səmərəli və qənaətlə istifadəni,

[1] https://e-qanun.az/framework/48628

mövcud potensial imkanların çevik və əlverişli şəkildə reallaşdırılmasını və s. tələb edir. Hansı ki, bu da özəl sektorun, sahibkarlığın inkişafı ilə, əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması ilə mümkündür.

Ümumilikdə 2022-2026-cı illərdə işğaldan azad edilmiş ərazilərə 30,0 milyard manatdan çox vəsaitin qoyulması nəzərdə tutulur. Tarixi Zəfərdən sonrakı üç il ərzində Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb, o cümlədən 2024-cü ilin dövlət büdcəsində də 4 milyard manat vəsait nəzərdə tutulub. Bütün bunlar Qarabağ və Şərqi Zəngəzurun bərpası və reinteqrasiyasının aktual olduğunu, bu istiqamətə irihəcmli vəsaitlər sərf olunduğu ifadə edir. Bu baxımdan, adıçəkilən ərazilərdə əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması aktual olmaqla yanaşı, həm də sərf edilən vəsaitlərin bərpası (özünüödəməsi) üçün zəruridir.

İnvestisiyaların cəlb edilməsi ilə sahibkarlıq mühitinin formalaşdırılması, regionda kiçik və orta sahibkarlığın inkişafının təşviqi, yerli təbii-iqtisadi potensialın tam və səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb edilməsi kimi məsələlər Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda qarşıya qoyulmuş başlıca hədəflərə daxildir. Başqa sözlə desək, Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın təmin edilməsi əsas hədəflərdən biri kimi seçilmişdir ki, bu da, ilk növbədə əlverişli biznes və rəqabət mühitinin formalaşdırılmasını tələb edir. Bu isə o deməkdir ki, biznes və rəqabət mühitinin formalaşdırılması və inkişafı istiqamətində elmi tədqiqatlar günümüzün reallığından irəli gələn zərurətdir.

Hazırda aktual məsələlərdən biri də dövlət-özəl tərəfdaşılığıdır. Azərbaycan Respublikasının 9 dekabr 2022-ci il tarixli "Dövlət-özəl tərəfdaşlığı haqqında" Qanununda da ayrı-ayrı iqtisadi sahələrin davamlı inkişafının təşviq edilməsi, özəl invstisiyaların cəlb edilməsi, biznes yönümlü infrastrukturların yaradılması, rəqabətqabiliyyətli məhsul istehsalı və ixracı, tarazlı regional inkişaf, dövlətin özəl tərəfdaşlara dəstəyi və s. kimi məsələlər öz əksini tapıb ki, bu da özəl

sektorun inkişafının strateji məqsəd olduğunu ifadə edir. Dövlət-özəl tərəfdaşlığı sahəsində siyasətə, bu sahədəki münasibətlərə, özəl sektorun təkliflərinin qiymətləndirilməsinə aydınlıq gətirən Qanun da əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması zəruriliyini qarşıya qoyur.

Tədqiqatın Şərqi Zəngəzur iqtisadi rayonu timsalında aparılması isə bu rayonun inkişaf imkanlarının daha geniş çeşidli olması ilə bağlıdır. Belə ki, Şərqi Zəngəzur dağlıq və aran əraziləri özündə birləşdirərək fərqli iqlim, mövsümi yanaşma imkanları da vəd edir. İqtisadi rayonun cəlbedici coğrafi-təbii relyefi, əksər ərazilərdə sərt iqlim və relyefin olması, mineral və müalicəvi su ehtiyatları, dağ-mədən sənayesinin, qara metallurgiyanın və s. inkişafı üçün zəngin potensial imkanlara malik olması Şərqi Zəngəzurun tədqiqini təşviq etmişdir.

Şərqi Zəngəzur iqtisadi rayonu da Azərbaycanın işğal edilmiş digər əraziləri kimi, bütünlüklə erməni vandalizminə məruz qalmışdır. Yaşayış məntəqələrinin yerləyeksan edilməsi ilə yanaşı, təbii ehtiyatlar talan edilmiş, təbiətə milyardlarla manat zərər vurulmuş, yaşıllıq örtüyü, meşələr məhv edilmişdir. Belə bir şəraitdə biznes və rəqabət mühitinin formalaşdırılması çoxsaylı amillərdən asılıdır. Tədqiqat zamanı da qeyd edilən hallar nəzərə alınaraq geniş araşdırma və təhlillər aparılmış, Şərqi Zəngəzur iqtisadi rayonunda əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması yolları təklif edilmişdir. Onu da qeyd edək ki, tədqiqat işi işğaldan azad edilmiş Şərqi Zəngəzur iqtisadi rayonunun biznes və rəqabət mühiti timsalında aparılan ilk kompleks araşdırmadır.

Yuxarıda qeyd edilənlər seçilmiş tədqiqat mövzusunun aktuallığını tam əsaslandırır, Şərqi Zəngəzur iqtisadi rayonunda biznes və rəqabət mühitinin formalaşdırılması istiqamətində elmi araşdırmaların aparılmasının günümüzün reallığından irəli gələn zərurət olduğunu ifadə edir.

Şərqi Zəngəzur iqtisadi rayon kimi yeni olduğu üçün, ayrı-ayrı inzibati rayonlar tədqiq olunsa da, iqtisadi rayon kompleks şəkildə araşdırma obyekti kimi seçilməmişdir. Bununla belə, biznes və rəqabət mühiti ilə bağlı araşdırmalara akademik Z.Ə.Səmədzadə, AMEA-nın müxbir üzvü Ə.X.Nuriyev, prof. E.A.Quliyev,

B.X.Ataşov, V.T.Novruzov, V.Ə.Qasımlı, İ.H.İbrahimov, E.R.İbrahimov, E.M.Hacızadə, İ.M.Abbasov, A.B.Abbasov, T.N.Əliyev, R.Ə.Balayev, E.Ə.İbrahimov, R.Z.Hüseyn, N.C.Qafarov, A.Ə.Əzizov, M.C.Hüseynov, Ş.T.Əliyev, Y.Ə.Məmmədov, A.F.Abbasov, S.İ.Vəliyeva, M.M.Hüseynov, F.V.Quliyev, F.H.Abbasov, E.N.Əhmədova, V.B.Mirzəyev və başqalarının elmi əsərlərində geniş yer verilmişdir.

Eyni zamanda, əlaqədar məsələlərin tədqiqinə xarici ölkə alimlərinin əsərlərində də rast gəlinir. Biznesin təşkili, sahibkarlığın inkişafı, rəqabətin mahiyyəti, biznes və rəqabət mühitinə təsir edən amillər, dövlət-özəl tərəfdaşlığı və s. məsələlər xarici ölkə alimlərindən Qrişin İ.A., İqnatev K.M., Porter M., Lebedev N.A., A.Wall, Xiong W., Y.Yongheng, Jeffrey R., Roignant B. və digərləri tərəfindən də tədqiq edilmişdir.

Həmçinin Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Ticarət Təşkilatının, Dünya İqtsadi Forumunun və digər təşkilatların dəstəyi ilə həyata keçirilən layihələrdə, təşkilatların ənənəvi hesabatlarında, adıçəkilən qurumların beynəlxalq ekspertlərinin təhlil və araşdırmalarında ayrı-ayrı ölkələrdə biznes mühiti, rəqabət imkanları tədqiq edilir, qiymətləndirilir, davamlı olaraq biznes və rəqabət mühitinin təkmilləşdirilməsi zəruriliyi vurğulanır.

Bütün bunlarla yanaşı, yuxarıda da qeyd edildiyi kimi, bu tədqiqata qədər biznes və rəqabət mühitinin formalaşdırılması məsələləri Şərqi Zəngəzur iqtisadi rayonu timsalında tədqiqat obyekti kimi seçilməmişdir. Bu baxımdan da seçilmiş mövzu aktualdır və tədqiqat işi müasir dövrün tələblərindən irəli gələn araşdırmadır.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat obyekti kimi Şərqi Zəngəzur iqtisadi rayonunun biznes və rəqabət mühiti seçilmişdir.

Tədqiqatın predmetini isə biznes və rəqabət mühitinin yaranması, tərəqqisi və təkmilləşdirilməsi istiqamətində iqtisadi münasibətlərin formalaşması və inkişafı qanunauyğunluqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Şərqi Zəngəzur iqtisadi rayonunda əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması istiqamtində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Bu

məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcıllıqla yerinə yetirilmişdir:

- biznes və rəqabət mühitinin formalaşmasının elmi-nəzəri əsaslarının öyrənilməsi;
- biznes və rəqabət mühitinin formalaşmasına təsir edən amillərin müəyyənləşdirilməsi;
- biznes və rəqabət mühitinin formalaşdırılmasına dair beynəlxalq təcrübənin tətbiqi imkanlarının öyrənilməsi
- Azərbaycan Respublikasında biznes mühitinin mövcud vəziyyətinin tədqiq edilməsi;
- Şərqi Zəngəzur iqtisadi rayonunun səciyyəvi xüsusiyyətlərinin araşdırılması;
- Şərqi Zəngəzur iqtisadi rayonunun biznes imkanlarının tədqiq olunması;
- biznes və rəqabət mühitinin formalaşdırılmasının dövlət-özəl sektor əməkdaşlığı istiqamətinin araşdırılması;
- biznes və rəqabət mühitinin formalaşdırılmasında rəqəmsal texnologiyaların tətbiqi imkanlarının öyrənilməsi;
- biznes və rəqabət mühitinin formalaşdırılmasının dövlət mexanizminin tədqiqi.

**Tədqiqat metodları.** Tədqiqat zamanı müqayisəli təhlil, ümumiləşdirmə, iqtisadi-statistik təhlil, ekspert qiymətləndirməsi, induksiya, deduksiya kimi metodlardan istifadə edilib.

Tədqiqatın nəzəri metodoloji əsaslarını biznes və rəqabət mühitinin inkişafi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin və Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar, qanunlar və digər normativ aktlar, mərkəzi və yerli icra qurumlarının müvafiq hesabatları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları və s. təşkil edir. Eyni zamanda, tədqiqat zamanı yerli və xarici ölkə alimlərinin elmi əsərlərindən, respublika və beynəlxalq konfrans materiallarından, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun hesabatlarından da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- rəqəmsal yanaşma, rəqəmsal texnologiyaların tətbiqi əlverişli

biznes və rəqabət mühitinin formalaşdırılmasının zəruri şərti kimi çıxış edir;

- regionun sosial-iqtisadi inkişaf göstəriciləri, təbii ehtiyatları, relyefi, dövlət xidmətlərinin əlçatanlığı və s. biznes və rəqabət mühitini formalaşdıran amillərdir. Bu göstəriciləri dəyərləndirmək, eləcə də regionun inkişaf səviyyəsini qiymətləndirmək üçün, beynəlxalq təcrübəyə uyğun olaraq, regional inkişaf indeksinin tətbiq olunması məqsədəuyğundur;
- Şərqi Zəngəzur iqtisadi rayonunda ayrı-ayrı inzibati ərazilərin inkişafı ilə bağlı hədəflərin şəhər və kəndlərin inkişaf ehtiyacları, potensialları və problemlərinə uyğun seçilməsi zəruridir;
- beynəlxalq nəqliyyat layihələri əlverişli biznes və rəqabət mühitinin təkanverici amilinə çevrilməlidir;
- Şərqi Zəngəzur iqtisadi rayonunda idarəetmə və inzibati islahatların aparılması ilə yanaşı, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi və təşviqi də vacibdir;
- inkişaf etmiş ölkələrin təctrübəsi göstərir ki, regionun rəqabət qabiliyyətlilik indeksinin tətbiqi əmək bazarında movcud olan bacarıqları, biznes mühitinin güclü və zəif tərəflərini müəyyən etməyə imkan verir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yenilikləri aşağıdakılardır:

- Şərqi Zəngəzur iqtisadi rayonunda biznes fəaliyyətinin inkişaf istiqamətləri müəyyən edilmişdir;
- Şərqi Zəngəzurda əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması üçün rəqəmsal texnologiyalardan istifadə yolları təklif edilmişdir;
- regional inkişaf indeksinin tətbiqi zəruriliyi əsaslandırılaraq indeksial qiymətləndirilmə ardıcıllığı və məqsədləri müəyyən edilmişdir;
- Şərqi Zəngəzurda sürətli məskunlaşma, sahibkarların rentabelli fəaliyyəti, sakinlərin normal yaşaması və məşğulluğun təmini məqsədilə regionun rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi zəruridir. Bu məqsədlə, regionun rəqabət qabiliyyətlilik indeksinin tətbiqi təklif edilmiş və konkret

məqsədləri izah olunmuşdur;
- əlverişli biznes və rəqabət mühiti üçün zəruri olan regionun rəqabət qabiliyyətlilik indeksinin hesablanması alqoritmi təklif olunur;
- Çin, Yaponiya, Avropa ölkələri, Qazaxıstan, Gürcüstan və s. ölkələrin regional inkişaf strategiyaları araşdırılaraq Şərqi Zəngəzur iqtisadi rayonunda Çexiya və Qazaxıstan təcrübəsinin tətbiqi təklif edilmişdir;
- Şərqi Zəngəzur iqtisadi rayonunda dövlət-özəl sektor əməkdaşlığının inkişaf mərhələləri və istiqamətləri təklif edilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat nəticəsində əldə olunmuş elmi-nəzəri təklif və tövsiyələr gələcəkdə müvafiq istiqamət üzrə növbəti tədqiqatların aparılması üçün əsas ola bilər. Alınmış nəticələr əsasında verilmiş səmərələşdirici təkliflər, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunda əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması məqsədilə dövlət-özəl sektor əməkdaşlığı, rəqəmsal yanaşma, müasir rəqəmsal texnologiyaların və qabaqcıl beynəlxalq təcrübənin tətbiqi istiqamətində irəli sürülmüş təklif və tövsiyələr regional inkişafa dair müvafiq proqram və layihələrin hazırlanmasında istifadə oluna bilər. Eyni zamanda, tədqiqat zamanı əldə edilmiş nəticələr, irəli sürülmüş təklif və tövsiyələr uyğun ixtisaslarda təhsil alanlar və tədqiqatçılar üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi:** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 7 məqalədə (2-i xaricdə olmaqla) və 13 tezisdə (4-ü xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Modern texnologiyalardan istifadə davamlı inkişafın başlıca tələblərindəndir"(Bakı, 2022), "Rəqəmsal İqtisadiyyat Şəraitində Xidmət Sahələrinin İnkişaf İstiqamətləri" (Bakı, 2022), "Şərqi Zəngəzurun inkişaf perspektivləri" (Bakı, 2023), "Turizm Potansiyelli Doğu Zengezurda uygun biznes ortamının oluşum yönleri" (İstanbul, 2023), "The Impact of Human Capital on the Business Environment" (Paris, 2023), "Favorable competitive environment as a factor determining business development" (New York, 2023), "Heydər

Əliyev strategiyası: Tənəzzüldən zəfərə aparan yol" (Mingəçevir, 2023), "Heydər Əliyev-müasir Azərbaycanın uğurlarının banisi" (Bakı, 2023), "Heydər Əliyevin Azərbaycanda ekoloji dayanıqlı ətraf mühitin formalaşdırılmasında rolu" (Bakı, 2023) və sair tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Şərqi Zəngəzur iqtisadi rayonunda turizm xidmətlərinin inkişaf istiqamətləri" (Bakı, 2022), "Azərbaycan Respublikasının keyfiyyətli ərzaq təminatında işğaldan azad edilmiş ərazilərin potensial imkanları" (Bakı, 2022), "Şərqi Zəngəzurda əlverişli aqrar biznes mühitinin formalaşdırılması istiqamətləri" (Bakı, 2023), "Rəqabətqabiliyyətli istehsal davamlı inkişafı şərtləndirir" (Bakı, 2024), "The ımportance of competıtıon ın the formatıon of a favorable busıness envıronment" (Poland, 2024), "Возможности применения цифровых технологий в формировании благоприятной бизнес-среды и конкурентной среды" (Россия, 2024), "Müasir dövrdə rəqəmsal yanaşmanın biznes və rəqabət mühitinə təsiri istiqamətləri (Şərqi Zəngəzur iqtisadi rayonunun timsalında)" (Bakı, 2024) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (15049 işarə), I fəsil (81121 işarə), II fəsil (56986 işarə), III fəsil (67530 işarə), nəticə (9550 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (26730 işarə) üzrə ümumi həcm 271683 işarədir. Dissertasiyada 10 cədvəldən, 6 sxemdən və 3 şəkildən istifadə edilib. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər, diaqramlar, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 230236 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış,tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin "**Biznes və rəqabət mühitinin formalaşdırılmasının elmi-nəzəri əsasları"** adlanan birinci fəslində biznes və rəqabət mühitinin formalaşmasına dair elmi-nəzəri əsaslar araşdırılıb, mühitin formalaşmasına təsir edən amillər təhlil edilib, eləcə də mühitin formalaşdırılmasına dair beynəlxalq təcrübə tədqiq olunub. Bu fəsildə müxtəlif nəzəri yanaşmalar, elmi baxışlar geniş şəkildə araşdırılaraq, müvafiq ümumiləşdirmələr aparılıb.

Biznes və rəqabət məfhumları ilə bağlı iqtisadi ədəbiyyatlarda çoxsaylı yanaşmalar mövcuddur. Adam Smit sahibkarlıqla bağlı fikirləri daha ətraflı izah edərək - *"sahibkar bilavasitə mənfəət götürmək naminə fəaliyyət göstərsə də o, eyni zamanda, həm də qeyri-ixtiyari olaraq, bilavasitə öz əmlakına aid olmayan başqa zəruri, vacib amala, cəmiyyətin ümumi mənafeyinə (məsələn, məhsul istehsalının artmasına və keyfiyyətin yüksəldilməsinə, səmərəli fəaliyyətə, mədəni ticarət xidmətinə, istehsalın modernləşdirilməsinə, iqtisadiyyatın demokratikləşməsinə və s.) də xidmət etmiş olur"* – fikirlərini irəli sürmüşdür[2]. Məsələn, sahibkar iqtisadi fəaliyyəti ilə dövlətin sosial yükünü daşıyır. Burada başlıca məqsəd dövlətin sosial yükünün daşınması və ya ölkədəki işsizlik səviyyəsinin minimumlaşdırılması deyil. Hər bir sahibkarın başlıca amalı təsərrüfat subyektinin davamlı inkişafına nail olmaqla mənfəət əldə etməkdir.

Rəqabət ilə bağlı iqtisadi ədəbiyyatlarda müxətlif növ yanaşmalar mövcuddur. Lakin hər kəsin ümumi nəticəsi rəqabətin bazarda əsas mexanizm olması ilə yanaşı hərəkətverici qüvvə olmasıdır. İqtisadi ədəbiyyatlarda rəqabət anlayışına çoxsaylı yanaşmaları 3 istiqamət üzrə təsnifləşdirə bilərik[3].

Birinci yanaşmada rəqabətə mübarizə, yarış kimi baxılır. Bu hal yerli qanunvericilik aktlarında da öz əksini tapmışdır. Bu yanaşmaya görə təsərrüfat subyektləri bazar uğrunda, alıcı uğrunda biri-biri ilə yarışır.

İkinci halda rəqabətə tələb və təklifin tarazlığını təmin edən bazar mexanizminin elementi kimi baxılır. Bu yanaşma klassik iqtisadi

---

[2]Vəliyev T. S., Babayev Ə.P. və b. "İqtisadi nəzəriyyə". Dərslik, Bakı, 2001, 692 s.

[3] Roignant B., Lenos T. "Competitiveness strategy: Options and Games", 2019, 312 p.;

nəzəriyyəyə aiddir.

Üçüncü yanaşmada isə, rəqabət sahə bazarlarının tipini müəyyən edən meyar kimi götürülür. Bu yanaşma son dövrlərdə iqtisadi nəzəriyyənin inkişafı nəticəsində formalaşmışdır.

Rəqabətə dair başqa bir yanaşma isə amerikan iqtisadçı alimi Maykl Porterə aiddir. M.Porterə görə milli iqtisadiyyatın rəqabət qabiliyyəti istehsal, investisiya, yenilik (texnoloji üstünlük) və sərvət əsaslı olur[4].

İstehsal amilləri əsasında rəqabət qabiliyyətinin inkişafının və rəqabət üstünlüyünün əldə edilməsinin əsasında ölkənin resurslara (təbii işçi qüvvəsi və s.) malik olma və onlardan səmərəli istifadə olunma dərəcəsi (istehsal məsrəfləri; qiymətlər, valyuta məzənnələri) dayanır.

İnvestisiyaya əsaslanan rəqabət qabiliyyəti zamanı iqtisadiyyatın texnoloji üstünlüyü müəssisələrin müasir avadanlığa və texnologiyaya intensiv kapital qoyuluşlarına əsaslanır.

Yeniliklər əsasında rəqabət qabiliyyəti müxtəlif inkişaf səviyyəsində olan ölkələrdə baş verə bilər. Bir sıra sahələr innovasiyanı tətbiq etməklə, rəqabət üstünlüyü əldə etməyə çalışırlar, daha sonra isə digər sahələrdə yeniliklər tətbiq edilir.

Sərvət əsasında rəqabət, əvvəlki üç mərhələdən fərqli olaraq son nəticədə tənəzzülə aparır. Əsas problem ondan ibarətdir ki, əvvəldən yaradılmış sərvət əsasında hərəkət edən iqtisadiyyat öz sərvətini daha artıra bilmir. Bu mərhələdə bir çox səbəblər nəticəsində təsərrüfat subyektləri beynəlxalq rəqabətdə öz mövqelərini itirməyə başlayırlar.

M.Porterin yuxarıda qeyd etdiyi 4 rəqabət amilindən başqa coğrafi mövqe və nəqliyyat-kommunikasiya əsaslı rəqabətliliyin vurğulanması da zəruri olan digər bir nüansdır.

Tanınmış Avstriya iqtisadçısı Y.Şumpeter qeyd edir ki, *"rəqabət qabiliyyətlilik anlayışı həddən artıq dinamik kateqoriyadır və onun dinamikası, hər şeydən əvvəl, xarici amillərlə əlaqədardır. Rəqabət tarazlıq deyil, daim dəyişəndir"*[5]. Sahənin təkmilləşməsi və

---

[4]Портер М. «Конкурентная стратегия. Методика анализа отраслей конкурентов». Перевод Минервин И. М:, Альпина Паблишер, 2015, 453 стр.

[5] Vəliyev D.Ə., Əsədov A.M."Beynəlxalq İqtisadiyyat". Bakı, "Avropa" nəşriyyatı, 2012, 403 səh.;

yenilənməsi birdəfəlik hadisə deyil, fasiləsiz prosesdir və onun arxasında uzunmüddətli sabitlik dayanır. Başqa sözlə desək, sahibkar öz sahəsində nə qədər yenilikçi olsa bir o qədər bazarda rəqabət qabiliyyətli olacaq.

Başqa bir Avstriya iqtisadçısı F.Xayek rəqabətə daha geniş mənada baxır, onu "kəşf prosedurası" kimi qəbul edirdi. Xayekin fikrincə, sahibkar, resursların və nemətlərin qiymətinin artması və ya azalmasına istiqamətlənərək hansı istiqamətdə fəaliyyət göstərməli, nə, necə, kimin üçün istehsal etməli olduğunu dəqiqliklə dəyərləndirməlidir.

ABŞ iqtisadçısı A.Sloun rəqabətin olmadığı yerdə uğur qazanmağın təhlükəli olduğunu və rəqabətsiz mühitin yekunda durğunluğa səbəb olacağını qeyd edir.

Məşhur amerikan iqtisadçı İlyasz Kirchnerə görə iqtisadiyyatda rəqabətin mahiyyəti beş qüvvə ilə izah edilir: Müəssisələrarası rəqabət, əvəzedici məhsulların meydana çıxması, bazarda yeni rəqiblərin meydana gəlməsi, təchizatçıların ticarət etmək qabiliyyətləri və alıcıların ticarət etmək qabiliyyəti.

XIX əsr iqtisadçılarından C.Robinson və E.Çemberlin qeyd edir ki[6], *"bazar o zaman rəqabətli hesab edilir ki, orada məhsul satan müəssisələrin sayı o qədər çox və hər bir müəssisənin payı o qədər azdır ki, istənilən müəssisə məhsulun həcmini artırıb-azaltmaqla bazardakı qiymətə təsir göstərə bilmir"*. Başqa sözlə desək xalis rəqabətli bazarın əsas cəhəti bazarda müstəqil fəaliyyət göstərən çoxlu sayda subyektlərin mövcudluğudur.

Yuxarıda qeyd edilən məsələlər ilə yanaşı rəqabətə təsir edən faktorlardan biri də zamandır. Hər bir dövrün özünəməxsus xarakterik cəhətləri vardır ki, biznes subyektlərinin də bunu nəzərə alması vacibdir. O cümlədən, müəssisənin vizionu, idarəetmənin təşkili, kadr heyətinin bilik və bacarığı, korporativ mədəniyyət, normativ-hüquqi baza, rəqabət, vergi, sığorta, bank-kredit kimi sosial-iqtisadi amillər də hər biri biznes və rəqabət mühiti üçün özünəməxsus təsir imkanına malikdir.

Regional rəqabət qabiliyyətinin əsas strategiyası investisiyaların

---

[6] "Biznesin əsasları". A.B.Abbasovun redaktəsi ilə kollektiv monoqrafiya, Bakı, "Nurlan", 2005, 656 səh.;

cəlb edilməsi, iş yerlərinin yaradılması, iqtisadi artımın stimullaşdırılması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması imkanlarını təkmilləşdirməklə ümumi iqtisadi göstəriciləri və dayanıqlığı artırmaqdan ibarətdir. Regional rəqabət qabiliyyətlilik strategiyaları həm ölkə daxilində, həm də qlobal miqyasda bir bölgəni digər bölgələrlə müqayisədə daha cəlbedici və rəqabətli etmək məqsədi daşıyır.

Regional inkişaf strategiyaları bütün dünyada iqtisadi artımı dəstəkləmək, infrastrukturu təkmilləşdirmək və coğrafi ərazilərdə həyat səviyyəsini yüksəltməyə xidmət edir. Bir sıra ölkələr özünəməxsus iqtisadi, sosial və coğrafi şəraitə əsaslanaraq regional inkişafa müxtəlif yanaşmalar tətbiq edirlər.

Dünyanın ən inkişaf etmiş ölkələrindən olan Çinin regional inkişaf strategiyası müxtəlif əyalət və regionlarda iqtisadi artımı və infrastrukturun inkişafını dəstəkləmək və idarə etmək üçün kompleks yanaşmanı nəzərdə tutur.

Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyi (JİCA) tərəfindən regionların inkişafına dair hazırlanan strateji təlimat sənədində şəhər və regional inkişafın geniş şəkildə "Şəhər İnkişafı" və "Regional İnkişaf" istiqamətlərinə bölünməsi tövsiyə olunur.

Mərkəzi Avropa dövləti olan Çexiyada da regionlarda biznes və rəqabət mühiti formalaşdırılması məqsədilə regionlar üçün xüsusi dəstək paketinin formalaşdırılması, strateji planlaşdırma və idarəetmənin inkişaf etdirilməsi, rayon və şəhərlər arasında əlaqələrin gücləndirilməsi və s. məsələləri əhatə edən "Regional İnkişaf Strategiyası" hazırlanmışdır.

İqtisadi artımın sürətləndirilməsi və insanların həyat keyfiyyətinin yaxşılaşdırılması Qazaxıstanda həyata keçirilən Strateji İnkişaf Planının başlıca məqsədləridir. Gürcüstan təcrübəsində isə, "Regional İnkişaf Strategiyası"nda regionların iqtisadi və sosial potensialından istifadə edərək kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığı daha məhsuldar etmək, təbii ekosistemlərdən, biomüxtəliflikdən davamlı istifadə və ümumilikdə ölkənin rəqabət qabiliyyətini və davamlı inkişafını dəstəkləyən infrastrukturların təkmilləşdirilməsi nəzərdə tutulur.




**Sxem 1. Regional Rəqabətlilik İndeksi (RCİ)**

*Mənbə: https://ec.europa.eu/regional_policy/information-sources/publications/working-papers/2011/a-new-regional-competitiveness-index-theory-methods-and-findings_en*

Almaniyada koordinasiya edilmiş və inteqrasiya olunmuş regional inkişaf səylərinin təmin edilməsi üçün bir cox səviyyədə hökümətləri (regional və yerli) əhatə edən çoxsəviyyəli idarəetmə sistemi tətbiq edilir.

İsveçdə isə bölgələr üzrə məqsədləri, fəaliyyət planlarını və fəaliyyət göstəricilərini əks etdirən hərtərəfli və uzunmüddətli regional inkişaf strategiyası işlənib hazırlanır.

İrlandiya nümunəsi isə daha çox dövlət-özəl sektor əməkdaşlığına əsaslanır. Bu ölkədə dövlət sektoru, özəl sektor və vətəndaş cəmiyyəti arasında çevik əlaqələr mövcuddur və daimi bu təşviq edilir.

Portuqaliyada rəqabət qabiliyyətini artırmaq üçün innovasiya, tədqiqat və inkişaf fəaliyyətinin təşviqi diqqəti cəlb edir.

Finlandiya, Danimarka, Hollandiya, Böyük Britaniya və s.

ölkələrdə isə ətraf mühitin mühafizəsi və davamlılıq, mütəmadi monitorinq və qiymətləndirmə, davamlı inkişaf məqsədlərinə əməl olunması, iqtisadi dəyişikliklərlə demoqrafik vəziyyətin yaxından əlaqələndirilməsi, çevik sosial xidmətlərin göstərilməsi, səhiyyə, təhsil və s. xidmətlərin əlçatanlığının asanlaşdırılması kimi məsələlər əlverişli biznes mühitinin formalaşdırılmasının, iqtisadi dinamikanın təmin olunmasının vacib şərtləri kimi qəbul edilir.

Avropa təcrübəsində diqqəti cəlb edən digər bir məsələ 2010-cu ildən dövriyyədə olan və hər üç ildən bir nəşr olunan "Regional rəqabətlilik indeksi"dir (Regional Competitiveness Index - RCİ). RCI Avropa İttifaqı ölkələrinin inkişafını zamanla, müqayisəli formada izləmək və qiymətləndirmək imkanı verir və bu Avropa İttifaqında regionların rəqabət qabiliyyətinə dair Avropa perspektivini təmin edən ilk tədbirdir.

Dissertasiya işinin **ikinci** fəsili "Azərbaycan Respublikasında biznes mühitinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi" adlanır. Bu fəsildə, ümumilikdə Azərbaycanda biznes mühitinin müasir vəziyyəti öyrənilir, Şərqi Zəngəzur iqtisadi rayonunda biznes mühitinin xarakterik cəhətləri araşdırılır, iqtisadi rayonun təbii-iqtisadi potensialı təhlil olunur, iqtisadi rayonda biznes imkanları tədqiq olunur.

Bazar münasibətlərinin hökm sürdüyü bütün ölkələrdə özəl sektorun inkişafı, biznes mühitinin yaxşılaşdırılması dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin prioritetlərinə daxildir.

Həyata keçirilən islahatların bir istiqamətini də ölkəmizin qoşulduğu beynəlxalq razılaşmalardan, üzv olduğu beynəlxalq təşkilatların tövsiyələrindən irəli gələn məsələlər təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli 2199 nömrəli Sərəncamı ilə "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya" yaradılmış, 27 avqust 2018-ci il tarixli 431 nömrəli Sərəncamla isə "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya haqqında Əsasnamə" təsdiq edilmişdir. Komissiyanın əsas məqsədi, məhz sahibkarlıq fəaliyyətinin mümkün gəlirliliyini təmin edəcək və ədalətli rəqabət prinsiplərinə söykənəcək biznes mühiti yaratmaqdır[7].

---

[7] https://azranking.az/az/

2021-ci ildə ölkəmizdə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanıb, elə həmin ildə İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb ki, bu da biznes mühitinin cəlbediciliyini daha da yüksəldir.

Sahibkarlığın inkişafı, milli iqtisadiyyatda özəl sektorun payının artırılması, həm də Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”ndan da irəli gəlir[8]. Belə ki, sahibkarların beynəlxalq və yerli sərgilərdə iştirakı, bütün növ MKO subyektlərinə dəstəyin göstərilməsi, ölkəmizdə KOB dostu və KOB İnkişaf Mərkəzlərinin genişləndirilməsi və s. məsələlər strategiyada bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Həyata keçirilən proqram və layihələrin, reallaşdırılan tədbirlərin nəticəsidir ki, 2023-cü il ərzində fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayı 6,2 faiz artaraq 2022-ci ildəki 355906 vahiddən 377842 vahidə çatmışdır. Bunların da 2022-ci ildə 50,3%-i, 2023-cü ildə isə, 50,9%-i regionların payına düşür.




**Şəkil 1. Fəaliyyətdə olan MKO sahibkarlıq subyektlərinin Bakı şəhəri və regionlar arasında bölgüsü.**

***Mənbə:*** *“Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq”. Bakı, DSK, 2024, səh.13.*

[8] https://president.az/az/articles/view/56725

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin 50%-ə yaxınının yalnız Bakı şəhərinin payına düşməsi, regional siyasətə yeni yanaşma tələb edir. Bu mənzərə, eləcə də aşağıdakı cədvəldə verilmiş rəqəmlər ciddi araşdırma tələb edir. Niyə regionlarda sahibkarlıq Bakı şəhərinə nisbətən daha az inkişaf edir? Bu, ya alıcılıq qabiliyyəti, ya kəskin urbanizasiya, ya da sahibkarlıq fəaliyyətinin təşkili prosedurları ilə bağlı ola bilər. Əslində, ayrı-ayrı regionlar üzrə saylara baxanda da ciddi disproporsiya hiss olunur. Amma bu özünü daha çox Bakı və regionlar arasında büruzə verir, nəinki ayrı-ayrı regionlar arasında. Belə ki, cədvəldən də göründüyü kimi Abşeron-Xızı və Şərqi Zəngəzur istisna olmaqla, digər iqtisadi rayonlarda mikro, kiçik və orta sahibkarlığın inkişaf səviyyəsi yaxındır.

**Cədvəl 1.**

**Fəaliyyətdə olan MKO sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü, faizlə**

| İqtisadi rayonun adı | Ayrı-ayrı iqtisadi rayonların payı, %-lə | | |
|---|---|---|---|
| | 2021 | 2022 | 2023 |
| Bakı şəhəri | 49 | 49,7 | 49,1 |
| Naxçıvan | 2,3 | 2,4 | 2,5 |
| Abşeron-Xızı | 9,1 | 9,0 | 8,9 |
| Dağlıq Şirvan | 2,1 | 2,0 | 1,9 |
| Gəncə-Daşkəsən | 4,8 | 4,7 | 4,7 |
| Qarabağ | 3,8 | 4,0 | 4,0 |
| Qazax-Tovuz | 4,0 | 3,6 | 3,8 |
| Quba-Xaçmaz | 3,5 | 3,4 | 3,5 |
| Lənkəran-Astara | 5,6 | 5,7 | 6,0 |
| Mərkəzi Aran | 4,4 | 4,3 | 4,5 |
| Mil-Muğan | 2,9 | 2,9 | 2,9 |
| Şəki-Zaqatala | 4,8 | 4,5 | 4,5 |
| Şərqi Zəngəzur | 0,4 | 0,5 | 0,4 |
| Şirvan-Salyan | 3,1 | 3,2 | 3,2 |

***Mənbə:*** *Statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib edilib.*

Göründüyü kimi, Şərqi Zəngəzurda da artıq sahibkarlıq subyektləri fəaliyyət göstərir və 2022-ci ildə iqtisadi rayonda 1845 vahid, 2023-cü ildə isə 1754 vahid sahibkarlıq subyekti fəaliyyət göstərmişdir. 2023-cü ildə ümumi sayda regionun xüsusi çəkisi 2022-ci ilə nisbətən 0,1 faiz, sahibkarlıq subyektlərinin sayı isə 4,9% və ya 91 vahid

azalmışdır. Bunun əsas səbəbi kimi isə təsərrüfatların, fəaliyyətlərin birləşdirilməsi, birgə fəaliyyətin təşkili izah edilir. Çoxsaylı MKO sahibkarlıq subyektlərinin bir qismi öz fəaliyyətlərini birgə təşkil etməyə üstünlük verdilər ki, bu da sayın azalması kimi görünür.

Baxılan dövrdə, mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyər 23.0 faiz, işçilərin sayı 3.4 faiz, orta aylıq nominal əmək haqqı 12.0 faiz, sahibkarlıq subyektlərinin sayı 6.2 faiz, ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə MKO subyektlərinin payı 2.5 faiz artmışdır. Bununla belə, MKO subyektlərinə qoyulan investisiyalar 560.6 milyon manat azalıbdır ki, bunun da daha çox ölkənin inkişaf səviyyəsinin güclənməsi, iri sahibkarlıq subyektlərinin, şəbəkə sahibkarlığının inkişafı ilə əlaqədar olması ehtimal edilir.

**Cədvəl 2.**

**Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri**

| Göstəricilər | İLLƏR | | |
|---|---|---|---|
| | 2021 | 2022 | 2023 |
| Yeni yaradılmış əlavə dəyər, mln. manat | 13956,1 | 17170,4 | 20087,1 |
| İşçilərin sayı, min nəfər | 357,8 | 370,1 | 390,8 |
| Orta aylıq nominal əmək haqqı, manat | 632,2 | 707,9 | 765,8 |
| Əsas kapitala investisiyalar, mln. manat | 3387,7 | 2827,1 | 2366,1 |
| Fəaliyyətdə olan sahibkarlıq subyektləri | 355906 | 377842 | 401149 |
| Ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə MKO subyektlərinin payı, faizlə | 16,4 | 13,9 | 18,0 |
| Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda | 31,1 | 29,1 | 19,0 |
| Müəssisələrdə muzdla işləyənlərin ümumi sayında | 41,8 | 41,8 | 44,0 |
| Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında | 99,6 | 99,7 | 99,7 |

***Mənbə:*** *"Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq". Bakı, DSK, 2024, səh.23*

Məlum olduğu kimi, vergilər dövlət büdcəsinin əsas gəlir mənbəyidir və vergi siyasəti dövlətin iqtisadi prosesləri tənzimləməsinin əsas alətlərindən biridir. Bazar münasibətləri şəraitində vergilərin və beləliklə də büdcə gəlirlərinin artması dövlətin

iqtisadi siyasətinin prioritetinə aiddir. Hansı ki, bu artım həm vergi ödəyicilərinin sayının artması, həm də dövriyyəsinin artması hesabına mümkündür. Cədvəl 4.-dən də göründüyü kimi, 2021-2023-cü illərdə MOK subyektləri tərəfindən ödənilən vergi 647,1 milyon manat və ya 35,4% artıbdır. Bu illər ərzində MOK subyektlərinin də sayı 45243 vahid artıb. Bu mənzərəni Cədvəl 4. daha dəqiq təsvir edir.

Nəticələr olduqca təzadlı və düşündürücüdür. Cədvəl 4.-dən də göründüyü kimi, 2021-2022-ci illərdə bütün sahələr üzrə MOK subyektlərinin sayı artsa da, baxılan dövrdə MOK-ların ödədiyi vergilər əksər sahələrdə azalıb. Ən çox azalma isə 122.2 milyon manat olmaqla İnformasiya və rabitə sahəsində, 47.7 milyon manat olmaqla Tikinti sahəsində müşahidə edilib. Mütəxəssislərin fikrincə, tikintidə olan azalma işğaldan azad edilmiş ərazilərdə fəaliyyətin daha çox olması, bu ərazilərdə işləyənlərin ödənişlərində müəyyən güzəştlərin olması ilə əlaqələndirilir.

**Cədvəl 3.**

**İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən ödənilən vergilər, mln. manat**

| İqtisadiyyatın sahələri | İLLƏR | | |
|---|---|---|---|
| | 2021 | 2022 | 2023 |
| **İqtisadi fəaliyyət növləri üzrə cəmi** | **1827,1** | **1791,6** | **2374,2** |
| Kənd təsərrüf., meşə təsərrüfatı və balıqçılıq | 18,1 | 16,9 | 15,7 |
| Tikinti | 402,3 | 354,6 | 428.1 |
| Ticarət, nəqliyyat vasitələrinin təmir | 455,0 | 503,0 | 604,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 72,6 | 60,4 | 73,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 44,2 | 63,2 | 114,0 |
| İnformasiya və rabitə | 207,0 | 84,8 | 149,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 47,5 | 46,8 | 75,1 |
| Təhsil | 17,1 | 15,5 | 23,9 |
| Əhaliyə səhiy.və sosial xidmət göstərilməsi | 35,4 | 43,1 | 43,8 |
| Sənaye | 170,1 | 242,3 | 341,1 |
| Digər sahələr | 357,8 | 361,0 | 505,6 |

***Mənbə:** “Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq”. Bakı, DSK, 2024, səh.215.*

Tədqiqatlar bu nəticəyə gəlməyə əsas verir ki, Azərbaycanda biznes mühiti, müxtəlif sahələrdə səmərəli biznes fəaliyyəti ilə məşğul olmaq üçün əlverişlidir. Mövcud mühitin reallıqları qanuni fəaliyyət göstərən

sahibkarlıq subyektləri üçün hər hansı çətinlik yaratmır, əksinə kifayət qədər stimullaşdırıcıdır. Bəzi hallarda şəbəkə biznesinin, iri vergi ödəyiciləri olan təsərrüfat subyektlərinin nisbətən kiçik subyektlər üzərində dominantlığını nəzərə almasaq, ümumilikdə rəqabət mühitini də əlverişli hesab edə bilərik.

**Cədvəl 4.**

**İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı və ödədiyi vergilərə dair statistik mənzərə**

| İqtisadiyyatın sahələri | MKO sayı, vahid | | Vergi ödənişləri, mln. manat | |
|---|---|---|---|---|
| | 2021/22-ci illər | 2022/23-cü illər | 2021/22-ci illər | 2022/23-cü illər |
| **İqtisadi fəaliyyət növləri üzrə cəmi** | +21936 | +23307 | - 35.5 | +582,6 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | +120 | +77 | -1.2 | -1,2 |
| Tikinti | +560 | +946 | - 47.7 | +73.5 |
| Ticarət, nəqliyyat vasitələrinin təmir | +5831 | +4008 | + 48.0 | +101.8 |
| Nəqliyyat və anbar təsərrüfatı | +3244 | +3407 | -12.2 | +12.7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | +1059 | +1065 | +19.0 | +50.8 |
| İnformasiya və rabitə | +1136 | +538 | - 122.2 | +64.2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | +830 | +1566 | -0.7 | +28.3 |
| Təhsil | +1110 | +2015 | -1.6 | +8.8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | +494 | +843 | +7.7 | +0.7 |
| Sənaye | +1782 | -45 | +72.2 | +98.8 |
| Digər sahələr | +5770 | +8679 | +3.2 | +144.6 |

***Mənbə:*** *Cədvəl araşdırmalar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Azərbaycanda uzunmüddətli inkişaf perspektivləri vəd edən, eyni zamanda prioritet əhəmiyyət kəsb edən iqtisadi rayonlardan biri də Şərqi Zəngəzur iqtisadi rayonudur. Şərqi Zəngəzurun sağlamlıq, yaylaq, dağ və o cümlədən qış turizmi üçün əlverişli coğrafi mövqedə yerləşməsi, onun çoxşaxəli turizm potensialına malik olmasından xəbər verir. Xüsusilə qeyd etmək lazımdır ki, ərazisinə görə

Azərbaycanın ən böyük rayonu olan Kəlbəcər ilə yanaşı Laçın da yaylaq və sağlamlıq turizmi, müalicəvi bulaqlar ilə zəngindir.

Regionun aparıcı rayonlarından biri olan Kəlbəcər inzibati rayonu haqqında Ümummilli lider Heydər Əliyevin "*Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir*" sözlərinə istinad etsək Kəlbəcər inzibati rayonu istər sağlamlıq turizminin, istərsə də aqrar sektorun inkişafı baxımından zəngin potensial imkanlara malikdir[9].

Azərbaycan Respublikasının 2030-cu ilədək 5 Milli Prioritetlərindən biri olan "işğaldan azad edilmiş ərazilərə böyük qayıdış" ərazilərin mina və partlamamış sursatlardan təmizlənməsini, müasir yaşayış komplekslərinin salınmasını, istehsal və xidmət sektorunda müasir tələblərə cavab verən infrastrukturunun qurulması ilə yanaşı regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpasını və dolayısıyla iqtisadi fəaliyyətin yenidən qurulmasını ehtiva edir.

Bütün bunlarla yanaşı Şərqi Zəngəzurun müxtəlif növ kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün avantajlı olması da aydındır. Bu ərazilərin hesabına taxıl məhsulları istehsalının ümumi həcminin 400 min tona qədər, ət məhsullarının həcminin isə 45 min tona qədər artması imkanları mövcuddur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qarabağdakı quruculuq işlərinin innovativ əsaslarla olması zərurətini vurğulayaraq – "*Yenə deyirəm, bu bölgədə, Şərqi Zəngəzur və Qarabağ bölgəsində kənd təsərrüfatının inkişafı, ən müasir əsaslar üzərində qurulmalıdır. Çünki biz işlərə faktiki olaraq sıfırdan başlarıyırıq, ona görə səhvə yol verə bilmərik. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik. Hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq*" - sözlərini demişdir[10].

---

[9] https://www.azerbaijan-news.az/az/posts/detail/ulu-onder-kelbecerin-inkishafi-uchun-ehemiyyetli-qerarlar-qebul-etmishdir-202396

[10] "Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu" Bakı, İİTKM, "AzPrint" nəşriyyatı, 2022, 217 səh.;

Ümumilikdə işğaldan azad edilmiş rayonlarda 160-a qədər qiymətli metal yataqları mövcudur. Onların mütləq əksəriyyəti Kəlbəcər, Laçın və Zəngilan rayonlarında yerləşir. Xüsusilə Söyüdlü (Zod) (Kəlbəcər), Vejnəli (Zəngilan), Mehmana (Kəlbəcər), Çilgəzçay və Narzanlı (Laçın) kimi yataqların min tonlarla qiymətli metal ehtiyatı mövcuddur.

Tədqiqatlar belə nəticəyə gəlməyə əsas verir ki, Şərqi Zəngəzura daxil olan Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl rayonları bir sıra xüsusiyyət və potensialları ilə oxşar olsalar da, təbii, iqlim, yeraltı və yerüstü zənginlik, torpaqların təyinatı və münbitliyi və s. kimi xüsusiyyətlərlə bir-birindən xeyli fərqlənir. Bu baxımdan da, iqtisadi rayon üzrə bütün ərazilərə ümumi yanaşma ilə bərabər, hər bir inzibati rayona fərqli yanaşmaq da lazımdır.

Dissertasiya işinin "Şərqi-Zəngəzur iqtisadi rayonunda biznes və rəqabət mühitinin formalaşdırılması perspektivləri" adlanan **üçüncü** fəslində də araşdırmalar üç istiqaməti əhatə edir. Bu fəsildə Şərqi Zəngəzurda əlverişli biznes və rəqabət mühitinin formalaşdırılmasının dövlət-özəl sektor əməkdaşlığı istiqamətləri araşdırılır, əlverişli biznes və rəqabət mühitinin formalaşdırılmasında rəqəmsal yanaşmanın tətbiqi imkanları tədqiq olunur, əlverişli biznes və rəqabət mühitinin formalaşdırılmasının dövlət mexanizmi araşdırılır.

Aydındır ki, özəl sektorun inkişafına əsaslanan bazar münasibətləri şəraitində dövlət ilə özəl sektorun birgə fəaliyyəti regionun daha tez dirçəldilməsi üçün səmərəli ola bilər. Bu baxımdan da, dövlət-özəl sektor əməkdaşlığı (PPP) Şərqi Zəngəzur iqtisadi rayonunda əlverişli biznes-rəqabət mühitinin formalaşdırılması, regionun inkişafı, regionda normal həyatın bərpası baxımından zəruri hesab edilir.

Dövlət-özəl tərəfdaşlığın bir neçə əsas formaları mövcuddur ki, ABŞ, Böyük Britaniya, Almaniya və Fransa dövlət-özəl tərəfdaşlıq sahəsində lider dövlətlərdi. Hazırda isə, PPP-lərdən Braziliya, Hindistan və Türkiyədə daha geniş istifadə olunur. Ümumilikdə isə, araşdırmalar əsasında PPP-nin inkişaf mərhələlərini aşağıdakı kimi ifadə edə bilərik.

Beynəlxalq təcrübəyə əsasən onu demək olar ki, layihələrin dövlət-özəl tərəfdaşlığı vasitəsilə maliyyələşdirilməsi onun daha tez və daha səmərəli şəkildə başa çatdırılması ilə nəticələnir. Praktikada dövlət-

özəl sektor əməkdaşlıqları əsasən 20-30 illik və ya daha çox müddətli müqaviləyə əsasən həyata keçirilir.

Beynəlxalq təşkilatların bu məsələyə yanaşmasına gəldikdə, konkret olaraq Dünya Bankının müxtəlif dövlətlərdəki dövlət-ictimai münasibətlər, o cümlədən ənənəvi investisiya istiqamətləri ilə bağlı araşdırmaları xüsusilə diqqəti cəlb edir. Şəkil 2. və Şəkil 3.-də dövlət-özəl sektor əməkdaşlığı və dövlətin ənənəvi investisiya istiqamətləri əks olunmuşdur.

**Cədvəl 5.**

**Dövlət-özəl əməkdaşlığın (PPP) inkişaf mərhələləri**

| I Mərhələ | II Mərhələ | III Mərhələ |
|---|---|---|
| İlkin siyasi qərarların qəbulu | Qanunvericiliyə baxış | Tam inteqrasiya olunmuş sistemin yaradılması |
| Mövcud qanunvericiliklə uyğunlaşma | Strateji və praktiki təlimatların geniş yayılması | Hüquqi maneələrin aradan qaldırılması |
| Layihə portfelinin formalaşdırılması | PPP məsələləri ilə məşğul olan ixtisaslaşmış strukturların yaradılması | PPP modellərinin daha da aydınlaşdırılması və həyata keçirilməsi |
| Nəzəri bazanın formalaşması və inkişafı | PPP modellərinin təkmilləşdirilməsi | Kompleks risk bölgüsü |
| Mövcud təcrübənin tətbiqi | PPP üçün bazarın inkişafının təşviqi | Zəmanətli layihə portfelinin formalaşdırılması |
| **PPP** bazarının (əməkdaşlıq miqyasının) inkişafı | Layihə portfelinin genişləndirilməsi və daha çox sektorların əhatə olunması | Uzunmüddətli siyasi konsensusun yaradılması |
| | Yeni maliyyə mənbələrinin cəlb edilməsi | Bütün mövcud maliyyə mənbələrindən istifadə etməklə |
| | | Pensiya və özəl kapital fondlarını əhatə edən infrastruktur üçün investisiya bazarının yaradılması |
| | | PPP təcrübəsindən yüksək təcrübəli işçilər tərəfindən istifadə |

***Mənbə:*** *Araşdırma əsasında müəllif tərəfindən tərtib edilib.*




**Şəkil 2. Dövlət-Özəl sektor əməkdaşlığı**

*Mənbə:* <u>*https://bpp.worldbank.org/*</u>




**Şəkil 3. Ənənəvi dövlət investisiya istiqamətləri**

***Mənbə:*** <u>*https://bpp.worldbank.org/*</u>

Dövlət-özəl sektor əməkdaşlığı üzrə Dünya Bankının 2020-ci il üçün dərc etdiyi məlumatlara əsasən Azərbaycan, dövlət-özəl sektor əməkdaşlığı prosesinə başlamazdan əvvəlki dövr üçün hazırlıq səviyyəsinin qiymətləndirilməsi baxımından 100 baldan 30 bal, satınalma bölməsi üzrə 43 bal, müqavilə məsələləri üzrə isə 51 bal ilə qiymətləndirilmişdir. Sadalanan indiqatorlara əsasən Azərbaycan, dünya ölkələri sırasında müvafiq olaraq hazırlıq üzrə 44, həm satınalma və həm də müqavilə məsələləri üzrə isə 63-cü yerdə qərarlaşmışdır. Dünya Bankının ənənəvi dövlət investisiya məlumatlarına əsasən onu demək olar ki, ölkəmiz hazırlıq mərhələsi

üzrə 100 baldan 54, satınalma üzrə 66, müqavilə məsələləri üzrə 72 və infrastruktur aktivlərinin idarə edilməsi üzrə isə 73 bal ilə qiymətləndirilərək, 184 ölkə arasından müvafiq olaraq 61, 67, 77 və 52-ci pillələrdə yer tutmuşdur.

Müasir dövrün başlıca tələblərindən olan rəqəmsallaşmanın vəd etdiyi üstünlüklərdən də yararlanmaq prioritet əhəmiyyət kəsb edir. Müxtəlif mənbələrin öyrənilməsindən aydın olur ki, rəqəmsallaşmanın mühüm tərkib elementi olan “Metaverse” texnologiyası müasir dövrdə əlverişli biznes-iqtisadiyyat mühitinin əsas komponentlərindən biri kimi çıxış edir. Bu isə, ölkə və ya regional səviyyədə inkişafın təmin olunmasında “Metaverse” texnologiyalarının tətbiqini bir çağırışa çevirir.

Şərqi Zəngəzurun təbii-iqlim şəraitinin sərtliyi, müxtəlif iş adamlarının, insanların bir məkana toplanması çətinlikləri, eləcə də xərcləri “Metaverse”nin tətbiqini zəruri edir. Bu, həm də çevikliyi təmin etməklə, geniş əraziyə malik inzibati rayonlarda, eləcə də ümumilikdə iqtisadi rayonda iqtisadi inkişafa öz dəstəyini göstərəcəkdir. Nəzərə alsaq ki, rəqmsallaşma, internet texnologiyaları müasir iqtisadi uğurların əsas lokomotividir, onda Şərqi Zəngəzurda da bu istiqamətdə addımların zəruriliyi aydın olar.

Beləliklə, biznes və rəqabət mühitinin formalaşdırılmasının dövlət mexanizminin tədqiqindən belə nəticəyə gəlinir ki, investisiya, maliyyə-vergi, maliyyə-kredit siyasəti, ədalətli rəqabət aparmaq imkanları, antiinhisar fəaliyyəti və s. kimi məsələlər mühitə ciddi təsir edir. Başqa sözlə desək, əslində mühit elə bu siyasətlərin sayəsində formalaşır. Təcrübə sübut edir ki, biznes mühiti nə qədər əlverişli olarsa, rəqabət mühiti nə qədər ədalətli olarsa təsərrüfat subyektlərinin fəaliyyəti də bir o qədər uzunmüddətli və stabil olar.

Şərqi Zəngəzur iqtisadi rayonunda əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması perspektivləri istiqamətində aparılan araşdırmalardan aşağıdakı **nəticələr** əldə edilmiş və müvafiq **təkliflər** verilmişdir:

➢ Azərbaycanda biznes mühiti, müxtəlif sahələrdə səmərəli biznes fəaliyyəti ilə məşğul olmaq üçün əlverişlidir. Mövcud mühitin reallıqları qanuni fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün hər hansı çətinlik yaratmır, əksinə kifayət qədər stimullaşdırıcıdır. Biznes

mühitinə təsir edən əsas amillərdən biri kimi rəqabətlilik, ədalətli rəqabət mühiti əksər hallarda mövcuddur. Bəzi hallarda şəbəkə biznesinin, iri vergi ödəyiciləri olan təsərrüfat subyektlərinin nisbətən kiçik subyektlər üzərində dominantlığını nəzərə almasaq, ümumilikdə rəqabət mühitini də əlverişli hesab edə bilərik. Eyni zamanda, davamlı olaraq, dövlət tərəfindən müxtəlif sahələrə dair qəbul edilən vergi güzəştləri, qanunsuz müdaxilələrin qarşısının alınması, güzəştli kreditlər və s. haqqında stimullaşdırıcı qərarlar ölkəmizdə biznes mühitini daha cəlbedici olmasını şərtləndirir. Bütün bunlarla yanaşı, Şərqi Zəngəzur iqtisadi rayonunda daha güzəştli, stimullaşdırıcı şərtlərin qəbulu da diqqət mərkəzində olmalıdır;

➢ Şərqi Zəngəzur iqtisadi rayonu dövlətin regional inkişaf siyasətinin prioritet istiqamətini əhatə etməklə yanaşı, zəngin potensial imkanlara malikdir. Şərqi Zəngəzur iqtisadi rayonunda istər dağ-mədən sənayesinin inkişafı, istər aqrar sənayenin və aqrar sektorun inkişafı baxımından, istərsə də turizm və digər xidmət sahələrinin inkişafı baxımından zəngin potensial imkanlar mövcuddur. Regionda infrastruktur və enerji təminatı, rabitə xidmətləri yenidən qurulur, bərpa edilir ki, bu da regionun biznes imkanlarını reallaşdırmaq üçün olduqca önəmlidir.

➢ Tədqiqatlar belə nəticəyə gəlməyə əsas verir ki, Şərqi Zəngəzura daxil olan Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl rayonları bir sıra xüsusiyyət və potensialları ilə oxşar olsalar da, təbii, iqlim, yeraltı və yerüstü zənginlik, torpaqların təyinatı və münbitliyi və s. kimi xüsusiyyətlərlə bir-birindən xeyli fərqlənir. Bu baxımdan da, iqtisadi rayon üzrə bütün ərazilərə ümumi yanaşma ilə bərabər, hər bir inzibati rayona fərqli yanaşmaq da lazımdır. Ona görə də, rayonların (işğaldan azad edilmiş ərazilərin) pasportlaşdırılması, rayonun bütün potensial imkanlarının və fərqli xüsusiyyətlərinin (sərt iqlim, dağlıq ərazi, münbit torpaq və s.) virtual bir mənbədə cəmləşdirilməsi məqsədəuyğun olardı;

➢ Dövlət-özəl sektor tərəfdaşlığı (PPP) maliyyələşdirmə, planlaşdırma, obyektlərin tikintisi və istismarı, dövlət sektoru xidmətlərinin istehsalı və çatdırılması kimi istiqamətləri əhatə edir və müqavilə, icarə, konsessiya, birgə müəssisələr və s. kimi formaları vardır. PPP-nin əsas xüsusiyyətlərinə göstərilən xidmətlərin

uzunmüddətli (30 il və daha çox) olması, risklərin özəl sektora ötürülməsi və ya bölüşdülüməsi, uzunmüddətli müqavilələrin müxtəlif istiqamətləri əhatə etməsi və s. aid edilə bilər ki, bütün bunlar da dövlətin, dövlət büdcəsinin xərclərini azaltmağa, çevikliyə, rəqabətliliyə şərait yaradır;

- Rəqəmsal texnologiyaların tətbiqi Şərqi Zəngəzurda biznes və rəqabət mühitinin formalaşdırılmasının zəruri şərti kimi çıxış edir. Rəqəmsallaşmanın mühüm tərkib elementi olan “Metaverse” texnologiyası müasir dövrdə əlverişli biznes-iqtisadiyyat mühitinin əsas komponentlərindən biri kimi çıxış edir. Məhz bunun nəticəsidir ki, bu sahəyə nüfuzlu beynəlxalq şirkətlər ciddi yatırımlar edirlər. Məsələn, “McKinsey” şirkətinin 2021-ci il hesabatına əsasən 2030-cu ilə kimi bu sahənin 5 trilyon ABŞ dolları qədər genişlənməsi gözlənilir. Bu baxımdan da, Şərqi-Zəngəzur iqtisadi rayonunun inkişafında da “Metaverse” texnologiyalarının tətbiqi məqsədəuyğun olardı.
- Müasir reallıqlar regional qeyri-bərabərliklərin və balanslaşdırıcı inkişaf məqsədlərinin geniş təhlilini tələb edir. Ümumilikdə inkişafı izləmək və zamanla strateji yanaşmanın effektivliyini qiymətləndirmək, təkmilləşdirmək üçün xüsusi regional inkişaf indeksinin daxil edilməsi məqsədəuyğun olardı. Regional inkişaf indekslərinin tətbiqi həm də onunla əsaslandırılır ki, hər bir inkişaf göstəricisi ölçüləbilən bir hala gətirilməlidir. İndekslərin tətbiqi vaxtlı-vaxtında (əsasən, illik və yarımillik müddətlərdə) müvafiq qiymətləndirmələrin aparılmasına şərait yaradır ki, bu da zamanında müvafiq təkmilləşdirici addımların atılmasına imkan yaradır.
- Regionda biznes və rəqabət mühitinin ən vacib göstəricilərindən biri infrastruktur təminatıdır. Hansı ki, bu təminat lazımi bazarlara çıxışı təmin edir, xammal və hazır məhsulların əldə olunması üçün münbit şərait formalaşdırır. Bu baxımdan da, biznes və rəqabət mühiti üçün, istənilən regionun inkişafı bazara çıxış imkanlarına, ərazinin infrastrukturla təminatına olduqca ciddi önəm verilməsini zəruri edir.
- Əlverişli biznes və rəqabət mühitinin formalaşdırılmasında rəqəmsal yanaşmanın, müasir texnologiyaların tətbiqi istiqamətində

aparılan araşdırmaların nəticəsi olaraq, Şərqi-Zəngəzur iqtisadi rayonunun sosial-iqtisadi inkişafın stimullaşdırılması, normal həyat səviyyəsinin, əlverişli biznes və rəqabət imkanlarının formalaşdırılmasına yönəlmiş aşağıdakı təklifləri irəli sürmək mümkündür:

1. İqtisadi rayonlar, ərazi mövqeyinə uyğun olaraq, ölkənin qlobal və regional miqyasda qoşulduğu meqalayihələrin dəstəkverici qüvvəsinə çevrilməklə özünün daxili iqtisadi inkişafını təmin etməlidir. Məsələn, Orta Dəhlizin, Şərq-Qərb və Şimal Cənub, Bakı-Tbilisi-Qars dəmir yolu və s. layihə imkanlarının regional inkişafın təkanverici amilinə çevrilməsi zəruridir;

2. Şəhərlərin və iqtisadi rayonun inkişaf ilə bağlı hədəflər ayrı-ayrılıqda şəhərin və ya kəndin özünəməxsus inkişaf ehtiyacları və problemlərinə uyğun hazırlanmalıdır;

3. Nisbətən az inkişaf etmiş rayonlarda innovasiyaya əsaslanan regional inkişaf drayverlərinin təyin olunması və “Smart (ağıllı) İxtisaslaşma” strateji yanaşmasının tətbiqi məqsədəuyğun olardı;

4. Regional inkişaf məqsədlərinin və inkişaf proqramlarının ölkənin makro səviyyədə müəyyən olunan uzun və orta müddətli iqtisadi hədəfləri ilə daha yaxından uyğunlaşdırılması zəruridir;

5. Ən ucqar yaşayış məntəqələrinə qədər lazımi bazarlara daha asan və çevik çıxışı təmin etmək üçün infrastruktur (yollar, körpülər, kommunal xidmətlər, nəqliyyat əlaqələri və s.) təminatının təkmilləşdirilməsi vacibdir;

6. Qeyri-neft-qaz sənaye sahələrinin şaxələndirilməsinin təşviqi məqdsədilə kənd təsərrüfatı, turizm, texnoloji inkişaf və s. kimi istiqamətlərin dəstəklənməsi ilə yeni məşğulluq imkanlarının yaradılması zəruridir;

7. Turizm potensialından daha səmərəli istifadə məqsədilə regionun unikal mədəni və təbii irsinin təbliğ edilməsi, yeni iş yerləri və iqtisadi imkanlar yaratmaq üçün normal (çevik) infrastruktur və fəaliyyət mühitinin formalaşdırılması məqsədəuyğun hesab edilir;

8. İdarəetmə və inzibati islahatların aparılması ilə yanaşı, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi və ictimai nəzarətin təşviq edilməsi günün tələbidir.

➢ Tədqiqat zamanı Çin, Yaponiya, Avropa dövlətləri, Gürcüstan, Qazaxıstan və s. dövlətlərin regional inkişafa dair təcrübələri

araşdırılıb. Çexiya və Qazaxıstan təcrübəsinin ölkəmizdə tətbiqi təklif edilib. Belə ki, Çexiyada regionların inkişafı, regionlarda biznes və rəqabət mühiti formsalaşdırılması məqsədilə "Regional İnkişaf Strategiyası"ını hazırlanmışdır. Strategiyanın məqsədi regionlar üçün xüsusi dəstək paketinin formalaşdırılması, regionlarda strateji planlaşdırma və idarəetmənin inkişaf etdirilməsi üçün düzgün qərarlar qəbul etməkdir. Qazaxıstan təcrübəsi də oxşar olmaqla, həm də regionun rəqabət qabiliyyətlilik indeksinin tətbiqini tövsif edir;

- Regional rəqabətlilik indeksinin tətbiqi ərazinin rəqabət qabiliyyətinin müəyyən edilməsi, region sahibkarlarının, sakinlərinin normal yaşaması və işləməsi, potensial imkanlardan tam və daha səmərəli istifadə edilməsi üçün cəlbedici mühit təklif etmək imkanı yaradır.

**Tədqiqat işinin məzmunu müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Şərqi Zəngəzur iqtisadi rayonunda turizm xidmətlərinin inkişaf istiqamətləri // - Bakı, "Kooperasiya" elmi-praktiki jurnalı, - 2022. № 1, - s.92-99.
2. Azərbaycan Respublikasının keyfiyyətli ərzaq təminatında işğaldan azad edilmiş ərazilərin potensial imkanları // - Bakı, İİTKM, İqtisadi İslahatlar Jurnalı, - 2022. №3(4), - s.69-77.
3. Şərqi Zəngəzurda əlverişli aqrar biznes mühitinin formalaşdırılması istiqamətləri // - Bakı, AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, - 2023. № 1, - s.55-62.
4. Rəqabətqabiliyyətli istehsal davamlı inkişafı şərtləndirir // - Bakı, "Kooperasiya" elmi-praktiki jurnalı, - 2024. № 1(72), - s.23-31.
5. The importance of competitıtion in the formation of a favorable business environment // - Polşa, The journal "International Journal of Innovative Technologies in Economy", - 2024. № 2(46), - s.29-38.
6. Müasir dövrdə rəqəmsal yanaşmanın biznes və rəqabət mühitinə təsiri istiqamətləri (Şərqi Zəngəzur iqtisadi rayonunun timsalında) // - Bakı, "Audit" jurnalı, - 2024. № 2(44), - s.94-102.
7. Возможности применения цифровых технологий в формировании благоприятной бизнес-среды и конкурентной среды // - Москва, Экономика Предпринимательства, - 2024. №12

(173), Vol.18, - c.781-785.

8. Modern texnologiyalardan istifadə davamlı inkişafın başlıca tələblərindəndir // - Bakı, AƏSMA, "Azərbaycan iqtisadiyyatının modernləşdirilməsində gənclərin rolu" mövzusunda konfransın materialları, - 2022. - s.62-66.

9. Layihə menecmentində heyətin idarə edilməsinin səciyyəvi xüsusiyyətləri // - Bakı, Azərbaycan Universiteti, "Gənc tədqiqatçıların V Respublika elmi-praktiki konfransının materialları", - 2022.- s.98-99

10. The importance and possibilities of formation of intelligent transport systems in the conditions of sustainable development // - Şimali Makedoniya Respublikası, XVIII. International Balkan and Near Eastern Congress Series on Economics, Business and Management-Ohrid, - 2022. – s.6-15.

11. Azərbaycanda nəqliyyat sisteminin ümumi vəziyyəti və kadr təminatı məsələləri // - Mingəçevir, MDU, "Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar" Beynəlxalq elmi konfransın materialları, - 2022. II Cild, - s.121-124.

12. Rəqəmsal İqtisadiyyat Şəraitində Xidmət Sahələrinin İnkişaf İstiqamətləri // - Bakı, Doktorantların və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı, - 2022. – s.248-252.

13. Şərqi Zəngəzurun inkişaf perspektivləri // - Bakı, ADİU (UNEC), V İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı, - 2023. – s.217-224.

14. Turizm Potansiyelli Doğu Zengezurda uygun biznes ortamının oluşum yönleri // - İstanbul, VI. International Halich Congress on Multidisciplinary Scientific Research, - 2023. – s. 120-127.

15. The Impact of Human Capital on the Business Environment // - Paris, University of Paris, 9. International Paris Congress on Socıal Sciences &Humanities, - 2023. – s.391-398.

16. Favorable competitive environment as a factor determining business development // - New York, 9th Internatıonal New York Conference on Evolving Trends in Interdisciplinary Research & Practices, - 2023. – s.436-442.

17. Heydər Əliyev strategiyası: Tənəzzüldən zəfərə aparan yol // - Mingəçevir, MDU, Azərbaycan xalqının Ümummilli lideri Heydər

Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev – 100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi” Respublika elmi konfransının materialları, - 2023. – s.49-59.

18. Heydər Əliyev-müasir Azərbaycanın uğurlarının banisi // - Bakı, AKU, Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 100 illik yubi-leyinə həsr olunmuş “Heydər Əliyev və müasir Türk dünyası” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın matereriallları, - 2023. – s.423-428.

19. Azərbaycanın nəqliyyat strategiyası: mövcud vəziyyət və perspektivlər // - Mingəçevir, MDU, Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” II Beynəlxalq elmi konfransının materialları, - 2023. I cild, - s.121-124.

20. Heydər Əliyevin Azərbaycanda ekoloji dayanıqlı ətraf mühitin formalaşdırılmasında rolu // Bakı, AKU, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda Respublika elmi-praktiki konfransın materialları, - 2024. – s.109-112.

Dissertasiyanın müdafiəsi 23 aprel 2025-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 47234 işarə

Tiraj: 100